# Torpaq münasibətlərinin tənzimlənməsi və torpaq bazarının təşkilində aidiyyəti dövlət qurumları və bələdiyyələrlə fəaliyyətinin koordinasiyası mövzusunda işgüzar forumlar

**Əmlak Məsələləri Dövlət Komitəsi torpaq münasibətlərinin tənzimlənməsi sahəsində müasir yanaşmaların və yeni idarəetmə mexanizmlərinin tətbiqini nəzərdə tutan respublika üzrə işgüzar forumlara start verib. Belə ki, 02 iyul 2015-ci il tarixdə Şirvan şəhərində "Əmlak Məsələləri Dövlət Komitəsinin torpaq münasibətlərinin tənzimlənməsi və torpaq bazarının təşkilində aidiyyəti dövlət qurumları və bələdiyyələrlə fəaliyyətinin koordinasiyası" mövzusunda İşgüzar Forum keçirilib. Şirvanda keçirilən İşgüzar Forum Salyan, Neftçala, Hacıqabul, Sabirabad və Saatlı rayonlarını əhatə edib. Eyni məzmunlu Forum 03 iyul tarixində Ucar şəhərində də keçirilib. Bu Forum isə Kürdəmir, Zərdab və Göyçay rayonlarını əhatə edəcək.**

Forumda Komitənin Aparatı, Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyi, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti, yerli icra hakimiyyətləri, bələdiyyələrin və aidiyyəti dövlət qurumlarının nümayəndələri, iri torpaq mülkiyyətçiləri və istifadəçiləri və KİV nümayəndələri iştirak edib.

Bu tədbirlər Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əsasnaməsində əksini tapmış torpaq bazarının təşkili, torpaqların dövlət mühafizəsi, mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən torpaqların səmərəli istifadəsi kimi vəzifələrdən irəli gələrək keçirilir.

**İşgüzar Forumun məqsədi torpaq münasibətlərinin idarə edilməsi və tənzimlənməsi, eləcə də torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi, təyinatı üzrə istifadəsi və torpaq bazarının təşkilində Komitənin fəaliyyətini aidiyyəti dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslərlə əlaqələndirmək, onların hüquq və vəzifələrini izah etmək və bu barədə ictimaiyyəti məlumatlandırmaqdır.**

**Tədbiri giriş nitqi ilə Əmlak Məsələləri Dövlət Komitəsinin Aparat rəhbəri Azər Başirov açıb. Qeyd olunub ki, komitənin yeni Əsasnaməsi ilə daşınmaz əmlak, o cümlədən torpaq sahələri barədə bir sıra yeni vəzifə və funksiyalar komitəyə həvalə edilib. Torpaqların dövlət idarəetməsinin və torpaq bazarının təşkili, torpaqlardan istifadəyə dövlət nəzarəti kimi yeni fəaliyyət istiqamətləri müəyyən edilib.**

**Torpaqların kateqoriyaları, torpaqların istifadəsində yerli icra hakimiyyəti, bələdiyyələr, fiziki və hüquqi şəxslər və digər istifadəçilərin hüquq və vəzifələri nəzərə çatdırılıb. Torpaqların kateqoriyasından asılı olaraq onların istifadəsi, təyinatının dəyişdirilməsi qaydaları izah olunub. Bu sahədə normativ-hüquqi aktların tələbləri, bu tələblərin pozulması halları və onları yaradan səbəb və şərait barədə məlumat verilib. Dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid torpaqların kateqoriyası, təyinatına zidd olaraq torpaq sahələrində tikintilərin aparılması barədə məsələlər izah olunub. Qeyd olunub ki, torpaq sahələrindən əsassız və qeyri-qanuni istifadə hallarının, torpaq qanunvericiliyinə zidd özbaşına tikintilərin aparılmasının qarşısının alınması istiqamətində tədbirlər gücləndiriləcək. Neqativ halların qarşısının alınması, torpaq qanunvericiliyinin tələblərinin pozulması, cinayət məsuliyyətinə səbəb olan hallar, bununla bağlı inzibati xətalar və sanksiyalar barədə ətraflı məlumat verilib.**

Tədbirdə bildirilib ki, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi məqsədi ilə torpaq qanunvericiliyinin tələbləri bütün dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər tərəfindən təmin edilməlidir. **Tədbirdə həmçinin torpaqların təyinatına zidd olaraq istifadə olunması ilə bağlı məsələlərə toxunulub. Pay torpağı almış vətəndaşların xüsusi mülkiyyətlərində olan həmin torpaqlardan, ümumiyyətlə, istifadə etməməsi və ya təyinatına zidd istifadəsi barədə məsələlər müzakirə olunub. Əmlak Məsələləri Dövlət Komitəsinin bu sahədə hüquq və vəzifələri barədə məlumat verilib. Bildirilib ki, səmərəli istifadə və mühafizə məqsədilə Komitə müvafiq qurumların verilmiş qanunazidd qərarlarının icrasını dayandırmaq və ləğv etmək barədə məsələ və ya məhkəmə iddiası qaldırmaq hüququ vardır. Həmçinin, təyinatına zidd istifadə hallarında torpağın istifadəçidən geri alınması barədə tədbirlər görülür.**

Torpaq bazarının təşkili bir sıra mühüm prinsiplərə əsaslanır. Bura torpaq üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının dövlət qeydiyyatının məcburiliyi, bazar subyektlərinin hüquq bərabərliyi, torpaq inhisarçılığına yol verilməməsi aiddir.

**İşgüzar forumda torpaq münasibətlərinin tənzimlənməsində mövcud çətinliklər də müzakirə olunub. Bildirilib ki, bəzi hallarda ərazinin planlaşdırılması və tikintisi layihələrinin tələbləri, habelə yeraltı və yerüstü kommunikasiya xətlərinin mühafizə zonaları müvafiq qurumlar tərəfindən nəzərə alınmır. Bu hallar isə sonradan yüksək gərginlikli elektrik xətlərinin, magistral boru kəmərlərinin və rabitə xətlərinin yerlərinin dəyişdirilməsi məcburiyyətini yaradır.**

**Forum qarşılıqlı müzakirələrlə davam edib.**

**Qeyd edək ki, belə forumlar digər regionlarda da, o cümlədən Gəncə, Mingəçevir, Şamaxı, Şəki, Lənkəran, Beyləqan, Xaçmaz və Bakıda müntəzəm olaraq keçiriləcəkdir.**

**Nəriman CAVADOV,**
**"Respublika".**